*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 391-399*
https://doi.org/10.62837/2024.8.391
**TOFİQ ƏBDÜLƏZİZ OĞLU ƏBDÜLHƏSƏNLİ**
*Filologiya elmləri doktoru, professor*
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

# MƏHƏMMƏD FÜZULİ İRSİNİN TƏBLİĞİ VƏ TANIDILMASI HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİ KONTEKSTİNDƏ

**Giriş**. Azərbaycan ədəbiyyatı və mədəniyyəti daim xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəaliyyətinin əsas və vacib istiqamətlərindən biri olmuşdur. O, həyatının və ölkəmizin ən çətin və mürəkkəb dövrlərində belə, milli, o cümlədə ədəbi irsimizə xüsusi diqqət göstərmiş, çıxışlarında onun gələcək nəsillər üçün əhəmiyyətini ön plana çıxarmışdır. Bu cəhətdən klassik ədəbi irsimizə və onun görkəmli nümayəndələrinə böyük sevgi və qayğı ilə yanaşan, onun ictimai-ədəbi fikrin inkişafındakı və gənc nəslin yetişməsindəki rolunu yüksək qiymətləndirən və klassiklərimizin əbədiyaşarlığının təminatçısına çevrilən dahi liderin özü də bu müqəddəs missiyası ilə klassiklərin sırasına daxil olmuş və xalqımızın qəlbində əbədi taxt qurmuşdur.

Bu baxımdan ədəbiyyatımızın və mədəniyyətimizin hamisi Heydər Əliyevin həyat və yaradıcılığına xüsusi önəm verdiyi görkəmli simalardan biri də böyük Azərbaycan şairi Məhəmməd Füzuli idi. Müstəqilliyə yenicə qədəm qoymuş türk xalqlarında milli özünüdərk prosesinin gücləndiyi və türk dövlətləri arasında siyasi-mədəni birliyin möhkəmləndirilməsi yönündə mühüm addımların atıldığı bir dönəmdə, həm də ölkəmizin ağır günlərində dahi şairin 500 illik yubileyinin təntənəli şəkildə keçirilməsi Füzuli irsi fonunda türk dünyasının birliyinə çağırış və gələcək hədəflərin müəyyənləşdirilməsi demək idi.

**Heydər Əliyevin ədəbiyyat siyasətində M. Füzulinin yeri**. Heydər Əliyevin türk dünyasının birliyi haqqında zəngin, uzaqgörən fikir və mülahizələri böyük dövlət adamının fəaliyyət dairəsi üçün təbii sayılacaq sərhədləri aşaraq, türk ədəbi-mədəni irsinin dünya miqyasında tarixi-fəlsəfi və bəşəri əhəmiyyətinin qiymətləndirilməsi dərəcəsinə qalxmaqla keyfiyyətcə yeni istiqamət və hədəfləri müəyyənləşdirmişdir. Sovetlər Birliyi dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə…. kimi onlarla görkəmli söz ustasının həm respublika və SSRİ-də, həm də dünya miqyasında tanıdılması məqsədilə mühüm addımlara imza atan Heydər Əliyev müstəqilliyin bərpasından sonra bu addımları daha da genişləndirməyin yollarını öz zəngin təcrübəsi ilə peşəkar şəkildə təqdim etməyə nail oldu. Təsadüfi deyil ki, "*ümummilli lider milli-mədəni irsin təbliğinə ölkənin düşdüyü acınacaqlı vəziyyətdən çıxarılması uğrunda aparılan gərgin mübarizənin çox mühüm tərkib hissələrindən biri kimi baxırdı*" (3, s. 5).

Ümumiyyətlə, klassiklərimizə xüsusi dəyər verən Ümummilli Liderimiz bu sahədə atılacaq addımları həm milli-ideoloji, həm də dövlət məsələsi kimi vacib sayır ki, onun bu cür tarixi addımlarını eyni zamanda tədqiqatçılar üçün elmi səfərbərlik də hesab etmək olar: "*Heydər Əliyevin klassik ədəbiyyata və onun ölməz nümayəndələrinin irsinə verdiyi müstəsna əhəmiyyət bir də onunla bağlı idi ki, ədəbi inkişafın sonrakı dövrlərində ən istedadlı şair və yazıçılarımız klassik ədəbiyyatda qoyulmuş ümumbəşəri humanist mövzu və obrazlara dönə-dönə qayıdır və xalqın, millətin qarşısında duran problemləri həll etmək üçün onlardan uğurla bəhrələndilər*" (6, s. 113).

Mütəfəkkir-şairin anadan olmasının 500 illik yubileyi ilə əlaqədar imzalanmış 16 mart 1994-cü il tarixli Fərmanda "*Dünya klassikləri sırasında ensiklopedik biliyi, dəyərli bədii-fəlsəfi irsi ilə seçilən ölməz söz ustası Füzulinin Azərbaycan, ərəb və fars dillərində yaratdığı əsərlər ümumbəşəri mənəvi dəyər və sərvətlər xəzinəsinə əbədi daxil olmuşdur*" (10) fikri ilə M.Füzuli şəxsiyyətinə böyün önəm verən, yubiley üzrə Dövlət Komissiyasının sədri Heydər Əliyev komissiyanın 1 avqust 1994-cü il tarixli iclasında bütün çətinliklərə rəğmən, yubileyin keçirilməsinin əhəmiyyətini belə səciyyələndirirdi: "*İndi iqtisadi vəziyyət, yaşayışımız, bir sözlə, həyat nə qədər çətin olsa da, biz Məhəmməd Füzulinin yubileyini yüksək səviyyədə keçirməliyik. ...Həyatımızın bu keçid dövründə, ağır dövründə, mənəviyyatımızın, mədəniyyətimizin müəyyən dərəcədə sıxıntı keçirdiyi dövrdə belə bir yubileyin təşkili həyatımızı, bəlkə də, zənginləşdirəcəkdir*" (1).

Həmin dövrdə ölkəmizin mürəkkəb və çətin şəraitinə baxmayaraq, M.Füzulinin yubileyinin təntənəli şəkildə qeyd olunmasına Heydər Əliyev bir sıra cəhətlərdən xüsusi maraq göstərirdi ki, bunlardan biri də xalqımızın qədim tarixi köklərə bağlı olduğunu inkar edən fərziyyələrin müəlliflərinə - düşmən qüvvələrə cavab vermək və onları yerində oturtmaqdan ibarət idi: "*Biz daim çalışmalıyıq ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıdaq. Bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin tarixi, mədəniyyəti var. Bilsinlər ki, Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaradıcılığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır*" (2, s. 89). Dövlət müstəqilliyinin yenidən bərpasından sonra Azərbaycan ədəbiyyatı və mədəniyyətinin dünya miqyasında təbliğ olunmasını azərbaycançılıq məfkurəsinin aparıcı istiqamətlərindən biri hesab edən Ulu Öndər bu baxımdan Füzulinin yubileyinin qeyd olunmasını müstəsna hadisələrdən biri hesab edirdi: "*YUNESKO Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar qərar qəbul etmişdir. Bildiyimiz kimi YUNESKO hər il bu qəbildən olan qərarlar qəbul edir. Lakin bu imkandan necə istifadə etmək, şübhəsiz ki, hər bir ölkənin, xalqın özündən asılıdır... Türkdilli ölkələrdə Füzulinin yubileyinin keçirilməsi də bu tədbirlər sırasına daxildir*" (1).

Füzulini nəinki türk dünyasının, ümumən Şərqin böyük siması kimi bəşəri səviyyədə filosof-şair adlandıran Heydər Əliyev məhz onun Azərbaycan şairi kimi təbliğinin siyasi-mədəni əhəmiyyətinə xüsusi diqqət yetirir və bunu milli-mədəni

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 8, 2024
Səh. 391-399

irsin beynəlxalq alımdəm tanıdılmasının vacib faktoru hesab edirdi: " *...Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün. Eyni zamanda biz bu yubiley tədbirlərindən istifadə edərək dünyaya bir daha bildirməliyik ki, Füzuli azərbaycanlıdır...*" (9, s. 78).

Məlumdur ki, sovet dövründə türk xalqları arasında ictimai-siyasi və elmi-mədəni əlaqələrin inkişafı rejimin ideoloji əsaslarına zidd faktor hesab edildiyi üçün həmin illərdə ortaq mənəvi dəyərlər barəsində açıq şəkildə söz açmaq qeyri-mümkün idi. Şübhəsiz ki, bu da türk xalqlarının tarixi haqqında düzgün olmayan, obyektivlikdən kənar təsəvvürlərin meydana gəlməsinə gətirib çıxarmışdı ki, bunların içərisində böyük təəssüf doğuran əsas məqamlardan biri ortaq milli dəyərlərin şüurlu şəkildə ayrı-ayrı türk xalqları arasında bölüşdürülməsi, ümumtürk abidələrinin və şəxsiyyətlərinin ayrı-ayrı xalqlara məxsus şəkildə tədqiqi və təbliği, onlara müstəqil "sahib"lər təyin edilməsi idi. Ancaq türk dövlətlərinin öz müstəqilliklərini yenidən qazanmasından sonra ən böyük mənəvi qazanc ortaq dəyərlərə müştərək irs kimi yanaşılması imkanının yaradılması oldu. Bu cəhətdən M.Füzulinin yubileyinin ilk olaraq hansı ölkələrdə qeyd olunmasının vacibliyinə toxunan Heydər Əliyev xüsusilə vurğulayır ki, "*Türkiyədə tədbirlərin keçirilməsi məsələsi məni xüsusi maraqlandırır... Çünki Türkiyədə Füzulini elə Azərbaycandakı qədər tanıyırlar... Füzulinin yubileyinin İranda – Tehranda və Təbrizdə keçirilməsi də çox mühümdür. Orta Asiya dövlətlərində, Qazaxıstanda, Tatarıstanda, Başqırdıstanda da belə tədbirlərin keçirilməsi gərəklidir*" (1). Gördünüyü kimi, dahi öndərimiz Türkiyəni bu sahədə mühüm mərkəz hesab edir: çünki müstəqilliyə yenicə qədəm qoymuş türk dövlətlərinin türk dünyasının birliyinə gedən yolları elə Türkiyədən keçirdi və Türkiyə də bu ağır missiyanı öz üzərinə götürməklə milli-mənəvi bağların möhkəmlənməsinə xüsusi maraq göstərirdi. 1994-cü ilin noyabrında Türkiyənin İhsan Doğramacı adına Bilkənd Universitetində, ardınca isə Türkiyə Böyük Millət Məclisində M.Füzulinin 500 illiyi ilə əlaqədar təşkil olunan silsilə tədbirlər türk dünyasında böyük rezonans doğurdu. Bu mötəbər tədbirlərdə söz alan H.Əliyev görkəmli mütəfəkkir-şairin yaradıcılığı haqqındakı peşəkar təhlilləri ilə türk xalqlarının mənəvi birliyinin möhkəmlənməsi və təqdimində bu irsin önəmli qaynaq olduğunu dəfələrlə diqqətə çatdırmışdır. O, Bilkənd Universitetindəki çıxışında qeyd olunan mühüm məqamlara toxunmuşdur: "*Xalqlarımız çoxəsrlik tarixi ərzində böyük sınaqlardan keçmiş, böyük çətinliklərlə rastlaşmış, özlərinin milliliyini, mənəviyyatını, dilini, dinini yaşatmış, saxlamış və bugünkü xoşbəxt günlərə gətirib çıxarmışlar. Bizim xalqlarımız dünya mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya sivilizasiyasını elm, mədəniyyət sahəsində dəyərli əsərlərlə zənginləşdirmişlər. Bu sırada, xalqlarımızın böyük şəxsiyyətləri sırasında Məhəmməd Füzulinin xüsusi yeri var*" (8, s. 132).

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 391-399*

Türkiyə Böyük Millət Məclisindəki çıxışında isə Heydər Əliyev türk xalqlarının birliyini Füzuli şəxsiyyəti fonunda mükəmməl şəkildə analiz etmişdir: "*Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olub. Amma indi, türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyəti (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənələrinə uyğun olmayan rejimlər içərisində yaşayan vaxtda Füzuli bizi yaşadıb, bu günlərə gətiribdir. Bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə - Kərbəlada, Bağdadda, həm Ankarada, Türkiyədə Füzulinin 500 illiyini qeyd edərkən artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyətinin yanında digər türk cümhuriyyətləri də vardır*" (1).

23 iyul 1996-cı il tarixində keçirilən M.Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti toplantısında Xalq yazıçısı, komissiyanın sədr müavini Elçin Əfəndiyevin iki il ərzində görülən işlər barəsindəki hesabat xarakterli çıxışından sonra Ulu Öndər yekun nitqində dahi şairin irsinin bundan sonra da tədqiqi və təbliğinin vacib olduğunu diqqətə çatdırır. Təbii ki, ilk olaraq Füzuli yaradıcılığının ölkəmizdə əsasən də gənc nəslə aşılanmasının, onun hikmətinin cəmiyyətimizə çatdırılmasının zəruriliyi ölkə başçısını xüsusi maraqlandırır: "*Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər çox oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir*" (9, s. 81).

Görkəmli siyasi xadim bütün bunların fonunda, o cümlədən M.Füzulinin simasında böyük tarixi şəxsiyyətlərin yubileylərini təşkil edərkən ciddi şəkildə düşünməyi tövsiyə edir. Çünki belə tədbirlər təkcə həmin şəxsiyyətlərin sadəcə xatırlanmasına xidmət etmir; bu cür addımlar toplumun onlarla bağlı təsəvvürlərini genişləndirməli, cəmiyyətdəki düzgün olmayan görüşləri aradan qaldırmalı və milli-ictimai şüurun inkişafına, milli-mənəvi yaddaşın möhkəmlənməsinə mühüm təkan verməlidir. Və bu kontekstdə Füzulinin irsinə ona görə xüsusi diqqət göstərilməlidir ki, "*biz millətimizdən danışarkən deyirik ki, 500 il bundan öncə yaşamış azərbaycanlı Füzuli dünya mədəniyyət xəzinəsinə öz böyük töhfələrini veribdir. Ona görə də biz yubileyi elə keçirməliyik ki, bu tədbir təkcə Azərbaycanda deyil, Türkiyədə də, İranda da, İraqda da, Moskvada da, Dərbənddə də, bir sözlə, hər yerdə böyük iftixar hissi doğursun*" (5).

Əvvəldə də qeyd etdiyimiz kimi, Heydər Əliyevin təşəbbüsü ilə və birbaşa rəhbərliyi altında hələ sovet hakimiyyəti illərində müxtəlif yubileylər təşkil olunmuş, milli mədəniyyətimizin keçmiş SSRİ-də, o cümlədən beynəlxalq aləmdə tanıdılması işində böyük təcrübə əldə olunmuşdu. Bununla belə mütəfəkkir-şairin 500 illik yubileyi ölkəmizin müstəqilliyi tarixində ilk genişmiqyaslı tədbir olduğundan dövlət

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 391-399*
səviyyəsində müəyyən məsləhətləşmələrə ehtiyac duyulur və təbii ki, digər türk dövlətlərinin hələ tam formalaşmamış təcrübələrinə müraciət edilir, işin milli və dövləti əhəmiyyəti ətraflı müzakirə olunurdu. Məsələn, həmin illərdə digər türk dövlətlərində də paralel olaraq belə təntənəli yubileylər qeyd olunur və bu tədbirlər də dövlət başçıları səviyyəsində keçirilirdi. Heydər Əliyev çıxışlarında bu məqama diqqət çəkərək deyirdi: "*Bilirəm ki, məsələn, keçən il avqust ayının sonunda biz Qırğızıstanın paytaxtı Bişkekə yalnız "Manas" dastanının min illik yubileyinə deyil, həm də türk cümhuriyyətləri dövlət başçılarının Zirvə görüşünə toplaşmışdıq. Xatirimdədir, o vaxt belə bir qərar qəbul olundu ki, türk ölkələri dövlət başçılarının növbəti Zirvə görüşü bu ilin oktyabrında Daşkənddə keçirilsin. Düzdür, görüşün günü müəyyənləşdirilmədi. Özbəkistan prezidenti cənab İslam Kərimov burada olarkən dedi ki, onlar Əmir Teymurun 670 illiyinə hazırlaşırlar. ...Mən belə başa düşürəm ki, ola bilər, onlar həmin Zirvə görüşünü Əmir Teymurun yubileyi ilə bir vaxta salsınlar. Bişkekdə "Manas"ın yubileyində olduğu kimi*" (5).

Göründüyü kimi, bu tədbirlərin keçirilməsi sadəcə yubiley səciyyəsi daşımır. Ümummilli Liderin fikirlərindən də aydın olur ki, türk dünyasının mədəni-mənəvi birliyinin gücləndirilməsi artıq o dövrdən başlayaraq möhkəm tarixi bağlar və siyasi-mədəni mənzərənin gerçəklikləri fonunda təzahür edir və bu konteksdə mədəni irsimizin beynəlxalq aləmdə təbliği də elə ümumtürk prosedurlarına əsaslanılaraq həyata keçirilir: "*...Füzulinin yubileyinə türkdilli ölkələrdən, şübhəsiz, daha çox nümayəndə gələcəkdir. Bu məsələni də nəzərdən qaçırmaq olmaz. Burada Anar təklif verdi ki, bizdə türkdilli ölkələrin yazıçılarının qurultayı keçirilsin. Mən bu təklifi qəbul edirəm... Belə bir qurultayı Azərbaycanda keçirmək lazımdır. Özü də mütləq... Onu Füzulinin yubileyi ilə eyni vaxta salmaq məqsədəuyğundur. Çünki əgər biz yazıçıların qurultayını keçiririksə, ən böyük yazıçımız, hamı üçün ən böyük yazıçı Füzulidir... Polad Bülbüloğlu burada o vaxt TÜRKSOY məclisinin də keçirilməsini təklif edir. Bəlkə, bu da yaxşı olardı. Amma bir az düşünün, bunların hamısı eyni vaxta düşsə, tədbirlər çox və yorucu olar. Bu barədə düşünmək lazımdır. ...Əgər biz o yazıçılar qurultayını keçiririksə, deməli, biz onu bütün türkdilli ölkələrlə razılaşdırdıqdan sonra keçirməliyik*" (5).

Uzun müzakirələrdən sonra bütün çətinliklərə rəğmən, 1996-cı il noyabrın 8-də Bakıda Respublika Sarayında dahi şairin 500 illiyinə həsr olunmuş təntənəli mərasim keçirildi. Heydər Əliyev yubiley tədbirindəki nitqində M.Füzuli irsinin bəşəri dəyəri, milli əhəmiyyəti və şairin 500 illiyi ilə əlaqdar dünya miqyasında keçirilən tədbirlər haqqında geniş məlumat verdi və onu da vurğuladı ki, Türk Dünyası Yazarlarının III qurultayında, həmçinin TÜRKSOY-un VIII yığıncağında M.Füzuli yaradıcılığı və onun yubileyinin keçirilməsi xüsusi diqqətdə saxlanılmış, hətta Bakıda beynəlxalq simpozium təşkil olunmuşdur. Dahi öndərimiz çıxışı zamanı M.Füzulini həm Azərbaycan xalqının, həm də türk-müsəlman dünyasının bəşəriyyətə bəxş etdiyi son dərəcə əvəzsiz simalardan biri kimi belə xarakterizə etmişdir: "*Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq eyni*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 391-399*
*zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur… Məhəmməd Füzuli öz yaşadığı dövrdən əvvəlki dövrü geniş təhlil etmiş və həm Şərqin ona qədər yaratdıqlarını, həm də qədim yunan, rum antik ədəbiyyatının, qədim hind ədəbiyyatının nümunələrini öz əsərlərində cəmləyərək yaradıcılığında Şərqin və Qərbin sintezinin nəticəsi olaraq, elmin, fəlsəfənin ən yüksək zirvələrinə çatmışdır*” (1).

Xalqın milli-mənəvi kimliyinin əsas göstəricilərindən biri, hətta birincisi hesab olunan dil məsələsinə xüsusi önəm verən və onu dövlətçilik fəaliyyətinin əsas istiqamətlərindən sayan Ümummilli Liderimiz nitqində Füzulinin dili ilə bağlı görüşlərini də ifadə edir. Şairin Azərbaycan dilinin tarixindəki xidmətlərini yüksək qiymətləndirən dahi öndər müəyyən mətləblərə də aydınlıq gətirir: “*Məhəmməd Füzuli o dövrdə hakim olan ərəb və fars dillərində yazmışdır. Ancaq bizim üçün ən əhəmiyyətli cəhət bundan ibarətdir ki, Məhəmməd Füzuli əsərlərinin çox hissəsini türk dilində, bugünkü Azərbaycan dilində yazmışdır. Bu, Məhəmməd Füzulini ondan əvvəl və sonra yaşamış, yaratmış və xalqımıza məxsus olan bir sıra şairlərdən, alimlərdən fərqləndirən amildir. Biz Füzulinin “Leyli və Məcnun” poemasını, onun türk dilində yazdığı divanını bu gün də dilimizdə rahat oxuyuruq, anlayırıq. Beləliklə, Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir*” (1).

Bu gün Ulu Öndərimizin layiqli davamçısı, Ali Baş Komandanımız cənab İlham Əliyev və onun xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən milli-mədəni irsimizin, ana dili və ədəbiyyatımızın inkişafına və təbliğinə xüsusi diqqət göstərilir, bu sahədə müstəsna xidmətləri olan görkəmli ziyalıların fəaliyyətləri qiymətləndirilir, tarixi şəxsiyyətlərin yubileyləri yüksək səviyyədə qeyd olunur. Son illər ölkəmizdə “Nəsimi İli”, “Nizami Gəncəvi İli”nin elan olunması, işğaldan azad olunan ərazilərimizdə, o cümlədən qədim Şuşamızda keçirilən Vaqif Poeziya Günləri, müxtəlif ədəbi şəxsiyyətlərin yubileyləri haqqında imzalanan fərman və sərəncamlar bunun bariz nümunəsidir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin “Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında” imzaladığı 25 yanvar 2024-cü il tarixli Sərəncam dövlət başçısı səviyyəsində filosof-şairin xatirəsinə göstərilən qayğının misilsiz göstəricisidir. Bu tarixi sənəddə otuz il öncə böyük şairin 500 illik yubileyinin keçirilməsi azad, suveren ölkəmizin ilk beynəlxalq səviyyəli mədəniyyət və sənət bayramı kimi səciyyələndirilir və HeydərƏliyevin bu sahədəki müstəsna xidmətlərinə diqqət çəkilir: “*...Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur*” (4). Sərəncamda M.Füzulinin Azərbaycan ədəbi-bədii fikrinin

inkişafındakı rolu ilə Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına xüsusi təsir göstərməsi və Şərqdə böyük ədəbi məktəb formalaşdırması qeyd olunmaqla yanaşı, onun dilimiz tarixindəki mühüm xidmətləri də aydın işıqlandırılır: "*Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır*" (4).

**Nəticə**. Vaxtilə ortaq ünsiyyət vasitəsi olan türkinin orta əsrlərin sonlarından etibarən tənəzzülü - diferensiasiya prosesinin başlanmasının Füzuli dövrünə təsadüf etməsi türkoloji dilçilikdə şairin dili ilə bağlı müxtəlif mülahizələr ortaya qoymasına baxmayaraq, Füzuli özündən əvvəlki dövrlə həmin mərhələnin bütün dil özəlliklərini öz yaradıcılığında mükəmməl şəkildə əks etdirməklə şərq türkcəsində Nəvainin gördüyü işi qərb türkcəsi üçün həyata keçirmiş və akademik T.Hacıyevin də fikri ilə desək, milli ədəbi dilin əsasını qoymuşdur. Bu baxımdan Heydər Əliyevin Füzuli irsinə münasibətini və atılan tarixi addımların əhəmiyyətini belə xarakterizə edək bilərik:

a) M.Füzuli və digər böyük şəxsiyyətlərin irsi fonunda türk xalqları həm ortaq, həm də öz milli-mədəni mirasına sahib çıxmalı, bu dəyərləri inkişaf etdirməklə və zənginləşdirməklə öz gələcək hədəflərini müəyyənləşdirməlidir.
b) Ortaq mənəvi dəyərlər və milli maraqlar fonunda türk xalqları qloballaşmanın təsirlərini də nəzərə alaraq, digər türk xalqları ilə qarşılıqlı əlaqələrin möhkəmlənməsini xüsusi diqqət mərkəzində saxlamalıdır.
c) M.Füzuli Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi kimi dünya miqyasında ədəbi-mədəni irsimizin önəmli bir hissəsi olaraq təbliğ olunmalı, onun müdrik-fəlsəfi fikirləri, kəlamları cəmiyyətimizə çatdırılmalı və gənc nəslə aşılanmalıdır.
d) Milli-ideoloji düşüncənin inkişaf etdirilməsində və möhkəmləndirilməsində tarixi köklərimizi və ortaq mənəvi dəyərləri əks etdirən abidələrin və şəxsiyyətlərin yubileyləri davamlı olaraq keçirilməli, xüsusilə bu imkanlar tədris prosesi zamanı şagirdlərin və tələbələrin milli ruhda yetişdirilməsində daim nəzərə alınmalıdır.

## İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə Dövlət Komissiyasının iclasında çıxışı - 1 avqust 1994-cü il / https://lib.aliyev-heritage.org/AZ/5197265.html
2. Bayramov R. Heydər Əliyev müstəqil türk dövlətləri arasında mədəni əlaqələrin qurucusu kimi // "Tədqiqlər" jurnalı, 2023, № 3-4, s. 88-91
3. Cəfərov N. Sözümüzün Ali Baş Komandanı. Bakı: Elm və təhsil, 2020

4. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / https://president.az/az/articles/view/63328 (05.09.2024)
5. Əliyev H. Müstəqilliyimiz əbədidir. / https://www.yumpu.com/xx/document/v iew/35120029/y-e-d-d-i-n-c-i-k-i-t-a-b
6. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutu. Bakı: Şərq-Qərb, 2009
7. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan, 1999
8. Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol. Bakı: BDU, 2006
9. Kərimli T. Heydər Əliyev və klassik irs. Bakı: Elm və təhsil, 2023
10. Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı / https://e-qanun.az/framework/9790 (05.09.2024)

**Xülasə**

Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin klassik ədəbi irsimizin qorunması və təbliği yönündə atdığı tarixi addımlardan, xüsusilə görkəmli Azərbaycan şairi Məhəmməd Füzuli irsinin beynəlxalq aləmdə tanıdılması və gələcək nəsillərə aşılanması sahəsində gördüyü işlərdən geniş söz açılır. Burada, əsasən Ulu Öndərin rəhbərliyi ilə M.Füzulinin 500 illik yubileyinin keçirilməsi istiqamətində həyata keçirilən tədbirlər və bunların türk xalqlarının maddi-mənəvi birliyinin möhkəmləndirilməsindəki əhəmiyyəti üzərində dayanılır. Qeyd olunur ki, müstəqilliyə yenicə qədəm qoymuş türk xalqlarında milli özünüdərk prosesinin gücləndiyi və türk dövlətləri arasında siyasi-mədəni birliyin möhkəmləndirilməsi yönündə mühüm addımların atıldığı bir dönəmdə, həm də ölkəmizin ağır günlərində dahi şairin 500 illik yubileyinin təntənəli şəkildə keçirilməsi Füzuli irsi fonunda türk dünyasının birliyinə çağırış və gələcək hədəflərin müəyyənləşdirilməsi demək idi. Bu baxımdan dövlət müstəqilliyinin yenidən bərpasından sonra Azərbaycan ədəbiyyatı və mədəniyyətinin dünya miqyasında təbliğ olunmasını azərbaycançılıq məfkurəsinin aparıcı istiqamətlərindən biri hesab edən Ulu Öndər Füzulinin yubileyinin qeyd olunmasını müstəsna hadisələrdən biri hesab etmişdir.

Araşdırmada Heydər Əliyevin M.Füzuli haqqında fikirləri şərh olunmuş, həmin dövrdə görülmüş işlərin məntiqi davamı olaraq bu gün Ali Baş Komandan cənab İlham Əliyevin ədəbi-mədəni irsin qorunması yönündəki misilsiz xidmətləri yüksək qiymətləndirilmişdir.

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan ədəbiyyatı, klassik irs, M.Füzuli, yubiley tədbirləri.*

**Abdulhasanli Tofiq Abdulaziz**

**PROMOTION AND RECOGNITION OF MUHAMMAD FAZULI'S HERITAGE IN THE CONTEXT OF HAYDAR ALIYEV'S STATEMANSHIP ACTIVITY**

**Summary**

The article deals with the historical steps taken by the national leader of the Azerbaijani people, Heydar Aliyev, in the direction of protecting and promoting our classical literary heritage, especially the work he did in the field of introducing the legacy of the outstanding Azerbaijani poet Muhammad Fuzuli to the international world and introducing it into the future generations. Here, it is focused mainly on the activities carried out under the leadership of the Great Leader to celebrate the 500th

anniversary of M. Fuzuli and their importance in strengthening the material and moral unity of the Turkish people. It is noted that at a time when the process of national self-awareness in the newly independent Turkic peoples is strengthening and important steps are being taken to strengthen the political and cultural unity between the Turkic states, as well as during the difficult days of our country, the solemn celebration of the 500th anniversary of the great poet is a call to the unity of the Turkic world against the background of Fuzuli's heritage and meant defining future goals. In this regard, after the restoration of state independence, he considered the promotion of Azerbaijani literature and culture on a world scale as one of the leading directions of the ideology of Azerbaijaniism and considered the celebration of the anniversary of Great Leader Fuzuli as one of the exceptional events.
Heydar Aliyev's views on M. Fuzuli were interpreted in the study, and as a logical continuation of the work done in that period, the unparalleled services of Commander-in-Chief Mr. Ilham Aliyev in the direction of protecting the literary and cultural heritage were highly appreciated.
**Keywords: Heydar Aliyev, Azerbaijani literature, classical heritage, M. Fuzuli, jubilee events.**

**Тофик Абдулазиз оглы Абдулгасанов**

**Мухаммеда Физули в контексте государственной деятельности Гейдара Алиева**

**АННОТАЦИЯ**

В статье широко рассказывается об исторических шагах, предпринятых общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым в направлении сохранения и пропаганды нашего классического литературного наследия, в частности, о работе, проделанной выдающимся азербайджанским поэтом Мухаммедом Физули в области популяризации его наследия на международном уровне и его привитии будущим поколениям. Здесь основное внимание уделяется мероприятиям, проводимым в основном под руководством великого лидера по случаю 500-летнего юбилея Физули и их важности для укрепления материально-духовного единства тюркских народов. Отмечается, что торжественное проведение 500-летнего юбилея великого поэта в период усиления процесса национального самосознания у тюркских народов, только что вступивших в независимость, и важные шаги по укреплению политико-культурного единства между тюркскими государствами, а также в тяжелые дни нашей страны на фоне Физулинского наследия означало призыв к единству тюркского мира и определение дальнейших целей. В этой связи, великий лидер, считавший после восстановления государственной независимости пропаганду азербайджанской литературы и культуры в мировом масштабе одним из ведущих направлений идеологии азербайджанизма, считал празднование юбилея Физули одним из исключительных событий.

В исследовании комментировались взгляды Гейдара Алиева о М.Физули, как логическое продолжение работы, проделанной в тот период, сегодня высоко оценены уникальные заслуги Верховного Главнокомандующего господина Ильхама Алиева в области сохранения литературного и культурного наследия.

**Ключевые слова: Гейдар Алиев, Азербайджанская литература, классическое наследие, М.Физули, юбилейные мероприятия**.

## Rəyçi: professor Marifə Hacıyeva